

Adil Cəmil

# Səsin palitrası

**Hərdən mənə elə gəlir ki, səsin də palitrası var - ağ, qara, çəhrayı  qırmızı rənglərdən ibarət palitrası. Səsin əlvan rənglərini sözün canına ustalıqla yeridən, hər kəlməni ecazkar səsinin qüdrətilə cilvələndirən Əməkdar artist Ağalar Bayramov bədii qiraət sənətimizin həqiqi korifeylərindən biridir.**

Hər kəsə bəllidir ki, incəsənət tariximizdə kino, dram aktyorlarından tutmuş bədii qiraətçilərə qədər gözəl, yadda qalan səs sahibləri olub, bu gün də var. Mətni tamaşaçı, dinləyici yaddaşında saxlamağın gücü səsin fövqəlliyindən keçib. Bu məqamda deyərdim ki, söz səsə borclu qalıb

Bədii qiraət ustası əslində bir aktyorun teatrını yaradır. Elə Ağalar Bayramov kimi  Bir aktyorun teatrından söz düşdüyü üçün qardaş qırğız xalqının epik mədəniyyət tarixi ilə bağlı epizodik müqayisəm güman edirəm yerinə düşər.

Qırğız xalqının və ümumən türk dünyasının möhtəşəm "Manas" eposu min ildir ki, şifahi şəkildə, əzbərdən manasçılar tərəfindən ifa olunur. Bu əsərin həcmi çox böyük olduğundan onu dinləməyə bəzən 40 gün, 40 gecə də bəs etmir. Manasçı kütlənin qarşısında bardaş quraraq eposun ayrı-ayrı boylarını ifa etməyə başlayır. Məzmuna uyğun olaraq manasçının səsi dəyişir. Səsin variasiyaları Manasın yenilməzlik ruhunu ifadə etməklə bərabər onun kiçik məğlubiyyətlərinə də "güzgü tutur". Necə deyərlər, manasçı bir aktyorun teatrını yaradır - səsi, əl hərəkətləri, jestləri və mimikası ilə  Bəlkə də bədii qiraət "Qurani-Kərim"dən, "Manas"dan üzü bəri gəlir.

Ağalar Bayramov da əlli illik yaradıcılığında "bir aktyorun teatrı"nı yaradıb. Bu səhnədə bütün obrazları yalnız özü oynayıb. Yurd itkisinə məruz qalanın da, Xocalıda, Şuşada  Kəlbəcərdə, Laçında evi dağılıb, balası şəhid olanın da, nakam sevgisinin kədərini bir ömür boyu yaşayanın da, "Vətən!" deyib hayqıran vətəndaşın da obrazını o, özü yaradıb.



Görkəmli şair Məmməd Aslan A.Bayramov haqqında belə yazırdı: "Gözəl, yatımlı bir səs də Allah vergisidir. Rəbbimizin inayətidir! Belə bir səs yüksək qayələrə, xalqın ümumi mübarizəsinə, nəsillərin yaddaş bağının möhkəmləndirilməsinə xidmət göstərərsə, ikiqat dəyər qazanar".

Ümumiyyətlə, bu sənətkar haqqında müxtəlif mətbuat orqanlarında onlarla, yüzlərlə yazı dərc olunub. Fikrət Qoca, Məmməd Aslan, Tofiq Hacıyev, Əjdər Ol, Flora Xəlilzadə, Nizaməddin Şəmsizadə, Vaqif Yusifli, Musa Ələkbərli, Əli Rza Xələfli, Tahir Aydınoğlu, Məcnun Göyçəli kimi tanınmış şair, alim və publisistlərin Ağalar Bayramov yaradıcılığı barədə söz deməsi elə sözün də ürəyindəndir. Çünki bu insanın ürəyi əslində söz yuvasıdır.

Bəzən onu da düşünürəm ki, bu qədər şeiri yaddaşda saxlamağın özü Allah vergisidir. Şairlərin əksəriyyəti öz yazdıqlarını əzbər söyləyə bilmirsə, əhsən Ağalar müəllimə. Bu, yaddaşın fenomenallığıdır!

Mən Ağalar Bayramovla müxtəlif zamanlarda müxtəlif səfərlərdə, poeziya günlərində, dövlət tədbirlərində, ədəbi yubileylərdə və s. olmuşam. O, çox istiqanlı, dostcanlı, sadə, səmimi bir insandır. Milyonlarla insan onun səsinin, o isə sözün aşiqidir. Sözün səslə bu biçimdə şəkillənməsi məhz Ağalar müəllimə məxsusdur. O müəllimə ki, Mədəniyyət və İncəsənət Universitetində 1991-ci ildən bəri tələbələrinə səhnə danışığının sirlərini öyrədir. A.Bayramov tələbələrinin timsalında görkəmli qiraət ustaları Kazım Ziyanı, Müxlis Cənizadəni, Həsən Əblucu, Mikayıl Mirzəni, Əminə Yusifqızını, İlham Əsgərovu, elə özünü də görmək istəyir

Arzun çin olsun, qardaş!

**Faşimz üzərində rus qələbəsinin bir payı da əzəmətli səs sahibi Levitana düşür. Gün o gün olsun ki, Azərbaycan bayrağının Dağlıq Qarabağda dalğalanması ilə bağlı xəbəri sənin səsindən eşidək, Ağalar müəllim!**

Ədalət 2019.- 24 oktyabr.- S.6.